**İran və Belarusdan idxal olunan məhsullara qoyulan qadağaya dair məlumat**

**(4 aprel 2023)**

Həyata keçirilən tədbirlər çərçivəsində Agentliyin əməkdaşları tərəfindən İran İslam Respublikasından idxal olunan portağal və Belarus Respublikasından gətirilən ərzaqlıq kartof məhsullarına fitosanitar baxış keçirilib. Götürülən nümunələr Agentliyin tabeliyində Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyalarına təqdim edilib.

Aparılmış ekspertiza nəticələrinə əsasən, İran İslam Respublikasından idxal olunan portağal məhsullarında 63 halda sitrus tristeza virusu, Belarus Respublikasından idxal edilən ərzaqlıq kartof məhsullarında isə 44 halda kartof yumrularında halqavari bakterial çürümə və 1 halda kartofun qonur çürümə bakteriyası aşkar edilib. İrandan olan ixracatçılara məxsus portağal məhsullarında aşkarlanan uyğunsuzluqlardan 20-si "Tejarat Rejal Zagros", 15-i "Grohe Bazargani Rangin Miveh Khavarmiane", 5-i "Armin Tejarat Tabriz", 4-ü "Fajr Tandis Ourasia" və 4-ü "Shirin Noosh Tejarat" şirkətlərinin payına düşüb. Belarus ixracatçılarına məxsus ərzaqlıq kartof məhsullarında aşkar olunan uyğunsuzluqlardan isə 14-ü "Совхоз Доброволец", 5-i "Восход", 3-ü "Царево", 3-ü isə "Машпищепрод" şirkətlərinə aid olub.

Faktlarla əlaqədar AQTA tərəfindən İran İslam Respublikasının Milli Bitki Mühafizəsi Təşkilatına və Belarus Respublikasının Kənd Təsərrüfatı və Qida Nazirliyinə bildirişlər göndərilərək baş verən uyğunsuzluqların araşdırılaraq nəticəsi barədə məlumat verilməsi istənilib. Qeyd olunanlara əsasən, Agentlik tərəfindən İran İslam Respublikası və Belarus Respublikasının adıçəkilən ixracatçılarının Azərbaycana məhsul idxalına 2023-cü il 5 aprel tarixindən müvəqqəti qadağa qoyulması qərara alınıb.